İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin "01/22" nömrəli "31" "yanvar" 2019-cu il tarixli əmri ilə təsdiq edilmişdir.

İdarə Heyətinin sədri ____________ Zaur Əliyev
(imza, M.Y.)

**Pilot layihə çərçivəsində orta və kiçik tibb işçilərinin (heyətinin) əmək haqlarına əlavələrin hesablanması və ödənilməsi Qaydaları**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə"nin (bundan sonra – pilot layihə) 15-ci hissəsinə uyğun olaraq hazırlanmışdır və pilot layihə çərçivəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tabeliyinə verilmiş dövlət səhiyyə sisteminə daxil olan qurumlarda (bundan sonra – tibb təchizatçıları) göstərilən tibbi xidmətlərin müqabilində orta və kiçik tibb işçilərinin (heyətinin) mövcud əmək haqlarına əlavələrin verilməsi qaydasını müəyyən edir.

## 2. Əmək haqlarına əlavələrin verilməsi qaydaları

2.1. İcbari tibbi sığortanın tətbiqi məqsədilə tibb təchizatçılarının yeni prinsiplərə əsasən maliyyələşməsi ilə əlaqədar olaraq həmin tibb təchizatçılarında çalışan orta və kiçik tibb işçilərinin (heyətinin) ixtisasından və ya çalışdığı struktur vahidindən asılı olaraq "Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli 3731 nömrəli Sərəncamı, "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli Qərarı, "Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı və digər normativ hüquqi aktlarla tənzimlənən mövcud əmək haqlarına hər ay tətbiq edilən əlavələrin məbləği aşağıdakı qaydada müəyyənləşdirilir:

| Sıra nömrəsi | Struktur vahidin/vəzifənin adı | Əlavələrin məbləği (vergilər və digər tutulmalar daxil olmaqla) |
|---|---|---|
| **2.1.1. ORTA TİBB İŞÇİLƏRİ (HEYƏTİ)** | | |
| 2.1.1.1. | Reanimasiya şöbəsi (Laborant vəzifəsində çalışan işçilər istisna olmaqla), Cərrahiyyə şöbəsinin Əməliyyatxana bölməsi (Əməliyyatxana bölməsində əməliyyatxana texniki vəzifəsində çalışan işçilər istisna olmaqla) | 200,00 manat |

| | | |
|---|---|---|
| 2.1.1.2. | Cərrahiyyə (Əməliyyatxana bölməsində çalışan işçilər istisna olmaqla), Terapiya, Uşaq, Ginekologiya və doğum, Hemodializ, Ailə Sağlamlıq Mərkəzi, Laboratoriya, Fizioterapiya şöbələri, Aptek bölməsi, Statistika bölməsində tibbi statistik vəzifəsində çalışan, Radiologiya şöbəsində texnik vəzifəsində çalışan, habelə Reanimasiya şöbəsində laborant vəzifəsində çalışan orta tibb işçiləri | 150,00 manat |
| 2.1.1.3. | Poliklinika, Radiologiya (Radiologiya şöbəsində texnik vəzifəsində çalışan işçilər istisna olmaqla) şöbələrində, Yoluxucu xəstəliklər və Vərəm şöbələrində stasionar xidmət göstərən, Nevroloji Sanatoriya və Sanatoriya-Kurort tipli bölümlərdə, habelə TTTY şöbəsində feldşer briqadasında feldşer vəzifəsində çalışan orta tibb işçiləri | 120,00 manat |
| 2.1.1.4. | TTTY şöbəsində böyük tibb bacısı vəzifəsində çalışan orta tibb işçiləri | 100,00 manat |
| 2.1.1.5. | Əməliyyatxana bölməsində əməliyyatxana texniki vəzifəsində çalışan orta tibb işçiləri | 80,00 manat |
| 2.1.1.6. | Baş tibb bacısı vəzifəsində çalışan orta tibb işçisi | 850,00 manat |
| | **2.1.2. KİÇİK TİBB İŞÇİLƏRİ (HEYƏTİ)** | |
| 2.1.2.1. | Reanimasiya şöbəsi və Cərrahiyyə şöbəsinin Əməliyyatxana bölməsində çalışan, habelə TTTY şöbəsində təsərrüfat bacısı vəzifəsində çalışan kiçik tibb işçiləri | 100,00 manat |
| 2.1.2.2. | Cərrahiyyə, Doğum və Ginekologiya, Fizioterapiya, Hemodializ, Ailə Sağlamlıq Mərkəzi, Laboratoriya, Uşaq, Poliklinika, Radiologiya, Terapiya, şöbələri, Yoluxucu xəstəliklər və Vərəm şöbələrində stasionar xidmət göstərən Nevroloji Sanatoriya və Sanatoriya-Kurort tipli bölümlər, Adminstrativ və Qeyri-tibb bölümlərində çalışan kiçik tibb işçiləri | 80,00 manat |
| 2.1.2.3. | Baş təsərrüfat bacısı vəzifəsində çalışan kiçik tibb işçisi | 250,00 manat |

2.2. Baş tibb bacısı və Baş təsərrüfat bacısı vəzifəsində çalışan işçilərin əmək haqları onların iş həcminin və əmək şəraiti gərginliyinin nəzərə alınması məqsədilə onların mövcud əmək haqlarına bu Qaydaların 2.1.1.6-cı və 2.1.2.3-cü abzaslarında göstərilmiş məbləğdə əlavənin verilməsi, habelə hər ay həmin əlavənin 15%-i həcmində artırılması (vergilər və digər tutulmalar daxil olmaqla) yolu ilə müəyyənləşdirilir.

2.3. İş həcminin və əmək şəraitinin gərginliyinin nəzərə alınması məqsədilə böyük: tibb bacısı (qardaşı) və mamanın (TTTY şöbəsində çalışan böyük tibb bacıları istisna olmaqla) əmək haqları onların təhkim olunduğu şöbələrdə bu Qaydaların 2.1.1-ci bəndinə əsasən müvafiq şöbədə çalışan orta tibb işçiləri üçün nəzərdə tutulmuş əlavələrin verilməsi (vergilər və digər tutulmalar daxil olmaqla), o cümlədən hər ay 50,00 manat məbləğində (vergilər və digər tutulmalar daxil olmaqla) əlavələrin verilməsi you ilə müəyyənləşdirilir.

2.4. İş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə təsərrüfat bacılarının əmək haqları onların təhkim olunduğu şöbələrdə bu Qaydaların 2.1.2-ci bəndinə əsasən müvafiq şöbədə çalışan kiçik tibb işçiləri (TTTY şöbəsində çalışan təsərrüfat bacıları istisna olmaqla) üçün nəzərdə tutulmuş əlavələrin verilməsi (vergilər və digər tutulmalar daxil olmaqla), o cümlədən hər ay 50,00 manat məbləğində (vergilər və digər tutulmalar daxil olmaqla) əlavələrin verilməsi yolu ilə müəyyənləşdirilir.